# Tarixin və milli mədəniyyətin təbliğinin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında rolu...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

## Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

**Bildiyimiz kimi, Azərbaycan özünəməxsus qədim maddi və mənəvi irsi, mədəni dəyərləri olan bir ölkədir. Milli mədəniyyətin qorunması və inkişafı həm də milli dövlətçiliyin möhkəmləndirilməsi deməkdir. Müxtəlif tarixi şəraitlərlə üzləşən Azərbaycan xalqı ana dilinə, adət-ənənələrinə, mədəniyyətinə, ədəbiyyatına, tarixinə, eləcə də milli-mənəvi dəyərlərinə bağlılığı sayəsində bu günədək özünün milli identikliyini, özünəməxsusluğunu qoruyub saxlaya bilib.**



Bunun nəticəsidir ki, xalqımız tərəfindən əsrlər boyunca yaradılan və yaşadılan milli-mənəvi irsimizin böyük bir hissəsi bu gün cəmiyyət həyatının müxtəlif sferalarında qorunub saxlanılır və dövlətin siyasətində də əksini tapır.

Prezident İlham Əliyevin öz çıxışlarından birində deyib ki, Azərbaycan milli dəyərlərə, mədəniyyətə əsaslanaraq inkişaf edən müasir, dünyaya açıq ölkədir: "Milli dəyərləri möhkəm olan xalq həmişə uğur qazanacaq, inkişaf edəcək. Hesab edirəm ki, Azərbaycan modeli, o cümlədən bu istiqamətdə əldə etdiyimiz uğurlar bir çox ölkələr üçün çox cəlbedicidir. Həm ənənələr, tariximiz, mədəniyyətimiz, dinimiz bizim üçün müqəddəsdir, eyni zamanda, biz dünyaya açığıq, müasirik, bütün ölkələrlə yaxşı münasibətlər qurmağa çalışırıq".

### Bu sərəncam dövlət başçısının xalqımızın tarixi və mədəni dəyərlərinizə xüsusi diqqətinin, böyük ehtiramının göstəricisidir

Azərbaycan dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliğini işğaldan azad edilən rayonlarda keçirdiyi beynəlxalq səviyyəli tədbirlərin köməyi ilə də edir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciəti zamanı Ali Baş Komandan İlham Əliyev 2022-ci ili "Şuşa ili" elan etdi. 2022-ci il yanvarın 5-də isə Prezident bununla bağlı Sərəncam imzaladı. Mühüm siyasi və tarixi əhəmiyyət kəsb edən bu sərəncam dövlət başçısının xalqımızın tarixi və mədəni dəyərlərimizə xüsusi diqqətinin, böyük ehtiramının göstəricisidir. 2022-ci ilin Azərbaycanda "Şuşa İli" elan edilməsi, həmçinin Şuşanın bu günü və gələcəyi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi üçün mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, bütün dünyaya verilən mesaj, Azərbaycanın Vətən müharibəsində şanlı Qələbəsinin təntənəsidir.

Artıq Qarabağın incisi olan Şuşada və digər ərazilərdə böyük quruculuq işləri aparılır, yerli və beynəlxalq səviyyəli tədbirlər keçirilir. Hələ 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyev Şuşanın azad olunması münasibətilə xalqa müraciətində demişdi ki, Qarabağın tacı olan bu şəhər tezliklə dirçəldiləcək və özünün əvvəlki şöhrətini qaytaracaq. Vətən müharibəsinin başa çatmasından dərhal sonra Prezident İlham Əliyevin Qarabağın bölgələrinə, xüsusən də Şuşaya dəfələrlə səfər etməsi, oradan səsləndirdiyi bəyanatlar, verdiyi tapşırıqlar və qısa müddətdə gerçəkləşdirilən layihələr bir daha sübut etdi ki, bu şəhər dövlətimizin başçısının xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Vətən müharibəsindən ötən dövr ərzində Şuşaya səfər edən hər bir azərbaycanlını bu şəhərdə düşmənin xalqımızın əsrlərlə yaratdığı maddi-mədəni irsə qarşı həyata keçirdiyi barbarlığı nə qədər hiddətləndirirsə, qısa müddətdə bu şəhərin başdan-başa quruculuq meydanına çevrilməsi bir o qədər sevindirir.

### Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında mənəvi dəyərlərin, eləcə də tarixin və milli mədəniyyətin təbliğinin rolu mühümdür

Təbiidir ki, tariximizin və milli mədəniyyətimizi təbliğinin müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında böyük rolu var. Bəziləri müasirliyi bəhanə edərək, gənclərimizin beyninə yad ideologiyaları yeritməyə çalışır.

Müasirlik deyərkən, bizim milli mentalitetimizə yad olan əxlaqın, müəyyən yaşam tərzinin, prinsiplərinin həyatımıza qəbul olunmasını qəbul edə bilmərik. Azərbaycan xalqı dövlətçilik tarixinə, ənənələrinə bağlı bir xalq olaraq o təməllər üzərində böyük mədəniyyət hadisələri yaradıb. Ululardan bizə yadigar qalan bir çox adət və ənənələr var ki, onlar kiçik dəyişikliklərə uğrasalar da özlərini qoruya biliblər. Bu gün də sözügedən adətlər, məişət və mədəniyyət hadisələri xalqımızın ümummilli dəyəri olaraq öz yerini qoruyub saxlamalıdır.

Tarixçi alim Səyyar Əliyev "Bakı-Xəbər"ə bildirdi ki,

Azərbaycanda dövlətçilik tarixinin öyrənilməsi və təbliği istiqamətində kifayət qədər işlər görülüb. Onun sözlərinə görə, məhz bunun nəticəsidir ki, bu gün Azərbaycan xalqının əksər nümayəndələri tariximizin müxtəlif mərhələləri, həmçinin 30 illik müstəqillik dövrü barədə kifayət qədər məlumatlıdırlar: "Hesab edirəm ki, müstəqillik dövründə milli mənəvi dəyərlərin qorunmasına söykənən təbliğat işi əsasən 44 günlük Vətən müharibəsində öz bəhrəsini verib. Qeyd etmək yerinə düşər ki, Vətən müharibəsində heç zaman Qarabağda olmayan, həmin əraziləri yalnız mətbuatdan və dərsliklərdən tanıyan yeni nəsil Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Zəfər çaldı. Bu, Azərbaycan gəncliyinin, eləcə də xalqının tariximizə olan diqqəti kimi dəyərləndirilməlidir. Ölkədə, həmçinin, milli-mənəvi dəyərlərimizin, eləcə də elm və mədəniyyətin təbliği istiqamətində kifayət qədər vacib addımlar atılıb. Keçmişdə olduğu kimi müstəqillik dövründə də milli adət-ənənəmiz olan Novruz Bayramının keçirilməsi, dini bayramların qeyd olunması yüksək səviyyədə baş tutur.

Bununla yanaşı, dövlətçilik tarixi, müəyyən siyasi hadisələrlə bağlı keçirilən dövlət bayramları da xüsusi qeyd edilmədir.

Azərbaycan dövlətçiliyinin qorunması və inkişafında mənəvi dəyərlərin, eləcə də tarixin və milli mədəniyyətin təbliğinin rolu mühümdür. Bu işi var gücümüzlə davam etdirməliyik".

***Məhəmmədəli QƏRİBLİ***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**